GESCO ASC



# AYLIQ İCMAL

Oktyabr - noyabr

# MÜNDƏRİCAT


| | |
|---|---|
| **İnsan resursları** | 03 |
| Vəzifədə yüksəliş | 04 |
| Xidmətdə fərqlənənlər | 04 |
| **Əməliyyat fəaliyyəti** | 05 |
| Ayın fəaliyyəti | 06 |
| Statistika | 07 |
| **Ayın xəbərləri** | 08 |
| Xəbərlər | 09 |
| **Mühafizəyə dair** | 10 |
| Müştəri məmnuniyyəti | 11 |

"GESCO" ASC



# İNSAN RESURSLARI

Dəyər verdiklərinizi
qoruyuruq!

# VƏZİFƏDƏ YÜKSƏLİŞ



**Taleh Soltanov**
Kiçik mütəxəssis
Mühafizəçi vəzifəsindən kiçik mütəxəssis vəzifəsinə keçirilmişdir.

# XİDMƏTDƏ FƏRQLƏNƏNLƏR

Əməkdaşlarımız oktyabr və noyabr ayları ərzində əmək fəaliyyətlərini yüksək peşəkarlıqla icra etdikləri üçün mükafatlandırılıblar.



**Elşən Rəhimov**
Mühafizəçi



**Murad Müseyibli**
Mühafizəçi



**Eltun Həsənzadə**
Mühafizəçi



**Mikayıl Kamalov**
Atlı nəzarətçi



**Əfrahim Məmişov**
Mühafizəçi



**Azər Feyzullayev**
Mühafizəçi



**Elmin Ağayev**
Mühafizəçi

# ƏMƏLİYYAT FƏALİYYƏTİ



# AYIN FƏALİYYƏTİ




## Meqastar Tarkanın Bakı konserti

Türkiyənin məşhur pop ulduzu Tarkanın Bakı konsertinin mühafizəsi "GESCO" əməkdaşları tərəfindən həyata keçirildi. 20 000-dən artıq insanın iştirakı ilə keçirilən konsertdə mühafizəçilər giriş-çıxışa, "VIP" zonaya və səhnə ərazisinə nəzarət edirdi.
Çoxsaylı iştirakçı ilə müşayiət olunan konsertin mühafizəsinə 160 əməkdaş cəlb olunmuşdu. Qeyd edək ki, bununla da ölkə və beynəlxalq miqyaslı ictimai tədbirlərin mühafizəsi təcrübəmizə növbəti biri əlavə olundu.




# STATİSTİKA

Oktyabr - noyabr ayları ərzində mühafizəçilər tərəfindən qarşısı alınmış hadisələrin statistikasını təqdim edirik.

## Oktyabr - noyabr



# AYIN
# XƏBƏRLƏRİ



# XƏBƏRLƏR




## "Sabah" və "Qarabağ" futbol klublarının növbəti oyunu

24 noyabrda "Sabah" və "Qarabağ" futbol klubları arasında növbəti oyun keçirildi. Oyunun mühafizəsini təmin edən əməkdaşlarımız stadionda qaydalara uyğun giriş-çıxışın təmin olunmasına, azarkeşlərin düzgün istiqamətləndirilməsinə və həmçinin digər mühafizə məsələlərinə nəzarət edirdi.



# MÜHAFİZƏYƏ DAİR

# Müştəri məmnuniyyəti: Müsbət yöndə münasibətlərin qurulması

Müştərilərlə birbaşa və sıx ünsiyyətdə olan mühafizəçilər üçün münasibətlərin düzgün qurulması çox vacibdir. Bunun üçün diqqət ediləcək məqamlar aşağıdakılardır:

**Effektiv ünsiyyət**
**Fikrini aydın ifadə etmək:** Mühafizəçilər öz fikirlərini aydın və konkret şəkildə ifadə edə bilməlidirlər. Buraya düzgün tələffüz və üslub seçimi də daxildir.
**Aktiv dinləmə:** Müştəriləri diqqətlə dinləmək və adekvat cavablar vermək onları narahatlığına dəyər verdiyinizi göstərir.

**Peşəkarlıq**
**Xarici görünüş:** Səliqəli və xoş xarici görünüş müsbət ilkin təəssürat yaratmağa kömək edir.
**Davranış:** Çətin situasiyalarda belə sakit və təmkinli olmaq müştəridə mühafizəçiyə qarşı inam yaradır.

**Empatiya**
**Narahatlıqları anlamaq:** Mühafizəçilər müştərilərlə empatiya qurmalı və problemlərin həllində həqiqətən maraqlı olduqlarını nümayiş etdirməlidirlər.
**Empatiya ilə yanaşmaq:** Ünsiyyət zamanı, yeri gəldikcə, "Başa düşürəm" və ya "Narahatlığınızı anlayıram" kimi ifadələrdən istifadə etmək sizin qarşı tərəflə empatiya qurduğunuza işarədir.

**Problemlərin həlli**
**Sürətli düşünmə:** Mühafizə əməkdaşları gözlənilməz məsələləri dərhal həll edə bilmək üçün cəld düşünməyi bacarmalıdırlar.
**Çeviklik:** Prolemi effektiv şəkildə həll etmək üçün resurslardan düzgün və zamanında istifadəni nəzərdə tutur.

**Münaqişələrin həlli**
**Gərginliyi azaltma üsulları:** Gərginliyi azaltma üsullarına dair keçirilən təlimlər mühafizəçilərə aqressivlik artmadan gərginliyi aradan qaldırmağa kömək edir.
**Neytrallıq:** Münaqişə zamanı tərəfsizliyi, ədalətli və qərəzsiz olmağı nəzərdə tutur.

**Müştəriyönümlü yanaşma**
**Pozitiv danışıq tərzi:** İstənilən situasiyada müsbət ifadələrdən istifadə etmək və qarşıdurma, münaqişə yaradacaq ifadələrdən yayınmaq tövsiyə olunur.
**Faydalılıq:** Müştərilərə kömək etmək istəyinin nümayiş etdirilməsi xoş təəssürat yaradır.

**Uyğunlaşma**
**Situasiyalara uyğunlaşma:** Müxtəlif vəziyyətlərə uyğunlaşmaq və müştəri ehtiyaclarını başa düşmək vacibdir.
**Fərqli mədəniyyətlərə tolerantlıq:** Fərqli mədəniyyətlərin mövcudluğundan xəbərdar olmaq və onlara hörmətlə yanaşmaq müştərilərlə effektiv ünsiyyət qurmağa kömək edir.

**Səbir**
**Tolerantlıq:** Xüsusilə müştərilərin məyus və ya narahat ola biləcəyi vəziyyətlərdə səbirli olmaq vacibdir.
**Prosedurları izah:** Müştəriyə istənilən təhlükəsizlik proseduru və bu səbəbdən baş verən gecikmələr haqqında aydın şəkildə məlumat vermək, onların zəruriliyini anlamalarına kömək etmək lazımdır.

**Komanda işi**
**Əməkdaşlıq:** Vahid və effektiv təhlükəsizlik yanaşmasını təmin etməkdə həmkarlarınız və digər insanlarla əməkdaşlıq mühüm rol oynayır.
**Koordinasiya:** Vahid mühafizə planı yaratmaq üçün digər xidmət təminatçıları (məsələn, tədbir təşkilatçıları, obyektdəki digər insanlar və s.) ilə birlikdə işlənilməlidir.

**Davamlı təlim**
**Məlumatlılıq:** Ən yaxşı xidməti təmin etmək üçün sektorda gedən proseslərdən, ən sonuncu prosedurlar və texnologiyalardan xəbərdar olmaq lazımdır.
**Rollu oyun:** Müvafiq bacarıqları formalaşdırmaq üçün təlimlər vasitəsilə davamlı olaraq müxtəlif ssenariləri üzərindən məşq etmək olar.

Qeyd olunan xidməti bacarıqları gündəlik qarşılıqlı fəaliyyətlərinə daxil etməklə mühafizəçilər xidmət göstərdikləri şəxslərlə güclü əlaqələr qura, müsbət mühitin formalaşmasına töhfə verə bilərlər.

GESCO SECURITY COMPANY

Since 2005

GESCO ASC

## BİZİMLƏ ƏLAQƏ


+994 12 310 05 77
+994 55 207 00 40

office@gesco.az

www.gesco.az

Bakı, Ziya Bünyadov prospekti, 1965-ci məhəllə, Çinar Park Biznes Mərkəzi